Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin ____________ 2023-cü il tarixli _____ nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında**
**Əmlak Məsələləri Dövlət Xidmətinin**
**Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Xidmət) struktur bölməsi olan Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində dövlət əmlakının idarə edilməsi, dövlət əmlakından təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət edilməsi, dövlət müəssisələrində özəlləşdirməqabağı sağlamlaşdırma və daşınmaz dövlət əmlakının registrinin aparılması işlərinin təşkilini və tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni və Xidmətin Əsasnaməsini, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) və Xidmət rəisinin əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Xidmətin bölmələri, strukturuna daxil olan qurumları və strukturuna daxil olmayan tabeliyindəki digər qurumları (bundan sonra – Xidmətin strukturları) ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. dövlət əmlakının idarə edilməsi və bu sahəyə investisiyaların cəlb olunması sahəsində

dövlət siyasətinin həyata keçirilməsinə dair təkliflər verir, dövlət müəssisələrinin və əmlakının idarə edilməsini təşkil edir;

2.0.2. dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və onların dövlətsizləşdirməyə hazırlanması sahəsində tədbirlər görür;

2.0.3. birgə müəssisələrdə dövlətin payının (səhmlərin) idarə olunması üçün tədbirlər görür;

2.0.4. daşınmaz dövlət əmlakının registrinin aparılmasını təşkil edir, bu məqsədlə mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, dövlət müəssisə və təşkilatlarından məlumatların alınmasını təmin edir;

2.0.5. fəaliyyət istiqamətləri üzrə monitorinqlərin və araşdırmaların təşkili sahəsində tədbirlər həyata keçirir;

2.0.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.0. Şöbənin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərindən irəli gələn aşağıdakı vəzifələri vardır:

3.0.1. dövlət əmlakının idarə edilməsi və dövlət əmlakı barəsində sərəncam verilməsinə dair təkliflər vermək və tədbirləri həyata keçirmək;

3.0.2. Azərbaycan Respublikasına məxsus olan və xaricdə yerləşən dövlət əmlakının dövlət mülkiyyəti kimi rəsmiləşdirilməsi və idarə olunması, onun barəsində sərəncam verilməsinə, o cümlədən mülkiyyət münasibətlərini tənzimləyən dövlətlərarası sazişlərin layihələrinin hazırlanmasına dair təkliflər vermək;

3.0.3. dövlət əmlakının idarə edilməsi sahəsində icra hakimiyyəti orqanlarının, dövlət müəssisə və təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə təkliflər vermək;

3.0.4. Nazirliklə razılaşdırmaqla dövlət təşkilatları tərəfindən dövlətə məxsus olan hüquqi şəxslərin (o cümlədən onların filial və nümayəndəliklərinin) yaradılmasına, yenidən təşkilinə, ləğv olunmasına və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslərin yaradılmasında dövlət əmlakının pay şəklində qoyuluşuna razılıq verilməsi barədə məsələlərə Xidmətin aidiyyəti strukturları cəlb edilməklə baxılmasını və tədbirlərin görülməsini təmin etmək;

3.0.5. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, dövlət mülkiyyəti əsasında yaradılan və ya səhmləri (payları) dövlətə məxsus olan müəssisələrin idarə edilməsinin təşkilində iştirak etmək, həmin müəssisələrin rəhbərlərinin təyin edilməsi və onlarla əmək müqavilələrinin bağlanılması barədə təkliflər vermək;

3.0.6. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlətə

məxsus olan hüquqi şəxslərin və nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərin nizamnamələrinin təsdiq edilməsi barədə təkliflərini Xidmət rəisi ilə razılaşdırmaqla Nazirliyə təqdim etmək və bu istiqamətdə tədbirlər görmək;

3.0.7. Nazirliyin müəyyən etdiyi hallarda dövlətə məxsus olan hüquqi şəxslərin təsisçisi (Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla) və iştirakçısı kimi çıxış etmək;

3.0.8. birgə müəssisələrdə dövlətə məxsus olan payın (səhmlərin) miqdarının dəyişdirilməsinə razılıq verilməsinə dair müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək, həmin payın səmərəli idarə edilməsini təmin etmək;

3.0.9. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlət əmlakının və dövlətə məxsus olan hüquqi şəxslərə məxsus obyektlərin (əsas vəsaitin) girov (ipoteka) qoyulmasına razılıq verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək və bu sahədə nəzarəti həyata keçirmək;

3.0.10. Nazirliklə razılaşdırmaqla dövlətə məxsus olan hüquqi şəxslərə məxsus obyektlərin (əsas vəsaitin) satılmasına razılıq vermək;

3.0.11. tabeliyindən və sahə mənsubiyyətindən asılı olmayaraq, dövlət mülkiyyətində olan, habelə nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərə məxsus obyektlərin (əsas vəsaitlərin) balansdan-balansa verilməsinə razılıq və silinməsinə dair rəy verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

3.0.12. dövlət, özəlləşdirilən müəssisə və obyektlərin vergi və digər borclarının vaxtında ödənilməməsi səbəbindən yaranan borclarla əlaqədar ödəmənin əmlaka yönəldilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

3.0.13. dövlət əmlakının idarə edilməsinə və ondan təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək, bu məqsədlə tabeliyindən və sahə mənsubiyyətindən asılı olmayaraq dövlət müəssisələrində, nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərdə monitorinq və araşdırmalar aparmaq, bu sahədə müvafiq qanunvericiliyi pozan müəssisə və təşkilatların vəzifəli şəxsləri haqqında qanunvericiliyin tələblərinə uyğun tədbirlər görmək və bu barədə aidiyyəti dövlət orqanlarına məlumat hazırlamaq;

3.0.14. dövlət əmlakı barəsində bağlanmış əqdlər Azərbaycan Respublikasının iqtisadi maraqlarına ziyanla nəticələndikdə həmin əqdlərlə bağlı məhkəmədə iddia qaldırılması üçün aidiyyəti üzrə təkliflər vermək;

3.0.15. dövlətə məxsus olan hüquqi şəxslərə və özəlləşdirilən hüquqi şəxslərə məxsus obyektlərin (əmlakın) və torpaq sahələrinin zəbt olunması və qanunazidd formada istifadə

olunması hallarının qarşısını almaq üçün tədbirlər görmək, bu məqsədlə aidiyyəti orqanlara məlumat verilməsi, o cümlədən məhkəmə qarşısında iddia qaldırılması barədə aidiyyəti üzrə təkliflər vermək;

3.0.16. dövlət əmlakının pay qoyuluşu ilə yaradılmış birgə müəssisələrin nizamnamə kapitalındakı dövlət payının (səhmlərin) səmərəli idarə olunması üçün tədbirləri həyata keçirmək, birgə müəssisələrin təsis sənədləri, fəaliyyəti və dövlət payının istifadə edilməsi ilə əlaqədar hesabatlarla tanış olmaq, təhlil aparmaq, dövlət paylarından səmərəli istifadə edilməsinin təmin olunması və özəlləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.0.17. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmdarlarının birinci ümumi yığıncağı çağırılanadək cəmiyyətin Müşahidə Şurasının səlahiyyətlərinin yerinə yetirilməsini və nizamnamə kapitalında dövlət mülkiyyətində qalan səhmlərə görə idarəçiliyin və dövlət paylarına nəzarətin həyata keçirilməsini təmin etmək;

3.0.18. səhmdar cəmiyyətlərinin səhmdarlarının birinci ümumi yığıncağı çağırılanadək cəmiyyətin Müşahidə Şurasının səlahiyyətlərini yerinə yetirmək üçün nümayəndələrin təyin edilməsi barədə təqdimat vermək;

3.0.19. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmdarlarının birinci ümumi yığıncağı keçirilənədək səhmdar cəmiyyətlərin idarə heyətinin sədri və üzvlərinin təyin edilməsi barədə təqdimat vermək;

3.0.20. səhmdarların birinci ümumi yığıncağının keçirilməsində səhmdar cəmiyyətlərinə metodiki yardım göstərmək;

3.0.21. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) saxlanılması və onların idarə olunmasının təmin edilməsi, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, o cümlədən idarəetmə məqsədi ilə payların (səhmlərin) hüquqi və fiziki şəxslərə verilməsi barədə təkliflər hazırlamaq;

3.0.22. nizamnamə kapitalında dövlətin payı olan birgə müəssisələrin idarəetmə orqanlarında dövlətin nümayəndəsinin təyin edilməsi barədə təkliflər hazırlamaq;

3.0.23. özəlləşdirilən müəssisə və obyektlərə, habelə ləğv olunan dövlət təşkilatlarına və müəssisələrinə məxsus olmuş sosial-mədəni, kommunal-məişət, mülki müdafiə, səfərbərlik təyinatlı obyektlərin və özəlləşdirilməsi nəzərdə tutulmayan digər əmlakın aidiyyəti üzrə balansdan-balansa verilməsi barədə təkliflər vermək və qəbul olunmuş qərarlar əsasında əmlakın balansdan-balansa verilməsinə nəzarəti həyata keçirmək;

3.0.24. dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi barədə Azərbaycan

Respublikasının Nazirlər Kabinetinə Nazirlik vasitəsilə aidiyyəti orqanlarla razılaşdırılmış təqdimat vermək və qəbul olunmuş qərar əsasında əmlakın bələdiyyə mülkiyyətinə verilməsini həyata keçirmək;

3.0.25. dövlət müəssisələrində keçirilən inventarlaşdırma zamanı aşkar edilmiş, lakin mühasibat uçotunda qeydə alınmamış əsas vəsaitlərin qeydə alınmasını təmin etmək;

3.0.26. dövlətə məxsus olan hüquqi şəxslərin və nizamnamə kapitalında dövlətin payı olan ödəniş qabiliyyəti olmayan hüquqi şəxslərin fəaliyyətini, maliyyə vəziyyətini təhlil edib rəy vermək, özəlləşdirilən müəssisə və obyektlərin müflisləşmə prosedurunun həyata keçirilməsində iştirak etmək və bu zaman dövlətə məxsus əmlakın satışını təşkil etməklə bağlı təkliflər vermək;

3.0.27. dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitdən ayırmaların müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması, dövlət əmlakının qorunub saxlanılması və mühafizəsi xərclərinin ödənilməsi məqsədi ilə istifadə olunmasına dair təkliflər vermək;

3.0.28. Xidmətin sərəncamına verilmiş müəssisə və təşkilatların rəhbər (nomenklatur) işçilərinin vəzifəyə təyin edilməsi və vəzifədən azad olunması, onların barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərin görülməsi haqqında təqdimatlar hazırlamaq;

3.0.29. müvafiq sahədə dövlət proqramlarının, inkişaf konsepsiyalarının layihələrinin hazırlanması ilə əlaqədar təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.0.30. əsas fondların təzələnməsi, yenidən qiymətləndirilməsi, amortizasiya normalarının hazırlanması ilə əlaqədar Nazirliyə təkliflər vermək və onların tətbiq edilməsində iştirak etmək;

3.0.31. dövlət əmlakının idarə olunması və özəlləşdirilməsi ilə əlaqədar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin və istehsalın inkişaf dinamikasının təhlil edilməsində, proqnozlaşdırılmasında və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, bu barədə proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.32. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrində və özəlləşdirmə prosesində olan müəssisələrdə rəqabət qabiliyyətli malların istehsalı üçün lazımi tədbirlərin həyata keçirilməsində, dövlət müəssisələrinin mövcud vəziyyətinin, inkişaf meyllərinin və müəssisələrin özəlləşdirilməsi imkanlarının beynəlxalq təcrübə nəzərə alınmaqla təhlil edilməsində və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.33. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsinin sürətləndirilməsi məqsədi ilə monitorinqlər aparmaq, monitorinqlər zamanı aşkar edilmiş qanun pozuntusu hallarının aradan qaldırılması ilə bağlı tədbirlər görmək və aidiyyəti üzrə məlumat vermək;

3.0.34. şöbəyə daxil olan müraciətləri vaxtında araşdırmaq və qoyulmuş məsələləri həll

etmək;

3.0.35. respublikanın ərazisində və onun hüdudlarından kənarda yerləşən daşınmaz dövlət əmlakının registrinin aparılması məqsədilə dövlət hakimiyyəti orqanlarından, dövlət şirkət, birlik, idarə, təşkilat və müəssisələrindən sərəncamlarında və balansında olan daşınmaz dövlət əmlakı haqqında müvafiq məlumatların əldə edilməsini və həmin məlumatların sistemləşdirilərək mərkəzi registr bazasında qeydiyyatının aparılmasını təmin etmək;

3.0.36. daşınmaz dövlət əmlakı barəsində bağlanmış əqdlərin (icarəyə və yaxud istifadəyə verilməsinin, girov qoyulmasının və digər öhdəliklərlə yüklənməsinin, özəlləşdirilməsinin), balansdan-balansa verilməsinin, silinməsinin, habelə əmlakın öhdəliklərlə yüklənməsi barədə digər halların dövlət əmlakının registrində qeydiyyatının aparılmasını təmin etmək;

3.0.37. dövlətə məxsus hüquqi şəxslərin xarici ölkələrdə təsis edilən törəmə və birgə paylı müəssisə, filial və nümayəndəliklərinin uçotunun təşkil etmək;

3.0.38. daşınmaz dövlət əmlakı barəsində sərəncam verilməsi və əqdlərin bağlanılması üçün registrdən çıxarışların hazırlanmasını təmin etmək;

3.0.39. registrdən çıxarış olmadan daşınmaz dövlət əmlakı barəsində hər hansı sərəncamların verilməsinin və əqdlərin bağlanılmasının qarşısının alınması üçün təkliflər vermək və digər tədbirlər görmək;

3.0.40. dövlət əmlakının registrində toplanmış məlumatlar (dövlət sirri təşkil edən daşınmaz dövlət əmlakı barəsində olan məlumatlar istisna olmaqla) əsasında müxtəlif toplu və məcmuələrin hazırlanmasını təmin etmək;

3.0.41. dövlət əmlakının registrinin aparılması sahəsində qanunvericiliyi pozan vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsi barədə təkliflər vermək;

3.0.42. daşınmaz dövlət əmlakı barəsində məlumatın təqdim olunmuş sənədlərə uyğun gəlməsini yoxlamaq məqsədi ilə təqdim olunan məlumatların və sənədlərin dəqiqliyinin yoxlanılmasını həyata keçirmək;

3.0.43. daşınmaz əmlakın dövlət registrinin informasiya sisteminin aparılması və təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.0.44. dövlət əmlakının idarə edilməsi, dövlət əmlakı barədə sərəncam verilməsi, registrinin və qeydiyyatının aparılmasını tənzimləyən normativ-hüquqi, metodik və digər sənədlərin layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

3.0.45. icra hakimiyyəti orqanlarından, dövlət müəssisə və təşkilatlarından dövlət əmlakının idarə olunmasına, onun barəsində sərəncam verilməsinə, dövlət əmlakının registrinin aparılmasına, özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi

ilə bağlı investisiyaların cəlb olunması və qoyuluşuna dair sənədlərin və digər məlumatların alınmasına dair təqdimatlar hazırlamaq;

3.0.46. dövlət əmlakının idarə olunması, dövlət əmlakı barəsində sərəncam verilməsi və dövlət əmlakından səmərəli istifadə olunması, dövlət əmlakının registrinin və onun barəsində bağlanılan əqdlərin qeydiyyatının aparılması sahələrində ərazi şöbələrinin fəaliyyətinə funksional rəhbərliyin həyata keçirilməsini təmin etmək;

3.0.47. özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin səhmlərinin nəzarət zərfi və yaxud səhmlərin digər hissəsi dövlət mülkiyyətində qaldıqda dövlət orqanlarının dövlət adından çıxış etməsini təmin etmək məqsədilə təkliflər vermək;

3.0.48. dövlət əmlakının özəlləşdirilməsi prosesində təsis olunmuş və tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinə məxsus daşınar və daşınmaz əmlakın satılmasına, digər qaydada özgəninkiləşdirilməsinə razılıq verilməsi barədə müraciətlərə baxılmasında iştirak etmək;

3.0.49. dövlət payı olan səhmdar cəmiyyətlərində və birgə müəssisələrdə dövlət büdcəsinə çatacaq dividendlərin hesablanmasını və ödənilməsini araşdırmaq, bu sahədə qanun pozuntuları aşkar olunduqda aidiyyəti orqanlara məlumat hazırlamaq;

3.0.50. dövlət əmlakı barəsində bağlanılmış əqdlərin, o cümlədən alqı-satqı və girov müqavilələrinin qeydə alınmasını təmin etmək;

3.0.51. dövlət əmlakının mühafizəsinə və qorunub saxlanılmasına nəzarəti həyata keçirmək, dövlət müəssisə və təşkilatları tərəfindən dövlət əmlakının inventar siyahılarının tərtib olunmasının təşkilində, daşınmaz dövlət əmlakının təyinatının dəyişdirilməsinə razılıq verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

3.0.52. dövlət əmlakından istifadə olunması barədə aidiyyəti dövlət orqanları ilə birlikdə statistik hesabat formalarının hazırlanmasında iştirak etmək, əmlakın inventar siyahıları, habelə əmlakdan istifadə barədə hesabatlar əsasında dövlət əmlakından təyinatı üzrə səmərəli istifadə olunması vəziyyətini təhlil etmək, bu sahədə müvafiq qanunvericiliyi pozan müəssisə və təşkilatların vəzifəli şəxsləri haqqında qanunvericiliyin tələblərinə uyğun tədbirlər görmək və bu barədə aidiyyəti dövlət orqanlarına məlumat hazırlamaq;

3.0.53. dövlət müəssisələrinin müqavilə əsasında idarəetməyə verilməsinə dair imzalanmış müqavilələrin şərtlərinin həyata keçirilməsinə nəzarət etmək;

3.0.54. dövlət müəssisələrindən və dövlət orqanlarından müəyyən olunmuş qaydada xüsusi hesabatların alınmasını və təhlil edilməsini təmin etmək, təhlil nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar barədə aidiyyəti dövlət orqanlarına məlumat hazırlamaq;

3.0.55. dövlət müəssisələrinin və ya əmlakında dövlət payı olan müəssisələrin fəaliyyətini və

maliyyə vəziyyətini təhlil edib təkliflər hazırlamaq;

3.0.56. müflis elan olunmuş dövlət müəssisələrinin əmlakının və nizamnamə kapitalında dövlət payı olan müəssisələrin dövlətə məxsus əmlakının satışına dair təkliflər vermək;

3.0.57. özəlləşdirilən müəssisə və obyektlərin yenidən təşkilinin və ləğvinin qanunvericiliyə uyğun olub-olmamasının təhlil edilməsində və bu sahədə qanun pozuntuları aşkar olunduqda aidiyyəti orqanlar qarşısında məsələ qaldırılmasında iştirak etmək;

3.0.58. dövlət əmlakından istifadə vəziyyətinin müəyyənləşdirilməsi, müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması üçün təhlillərin aparılması, özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi və özəlləşdirilən müəssisələrin (strateji müəssisə və obyektlər istisna olmaqla) fəaliyyətinin dəstəklənməsi sahəsində tədbirlərin müəyyən edilməsi məqsədilə dövlət mülkiyyətində olan və özəlləşdirilən müəssisələrdə araşdırmalar təşkil etmək, araşdırmaların nəticələri barədə məlumatların aidiyyəti orqanlara təqdim edilməsi barədə təqdimat vermək;

3.0.59. dövlət əmlakının idarə olunması və özəlləşdirilməsi, dövlət əmlakı barəsində sərəncam verilməsi və dövlət əmlakının qeydiyyatının aparılması, özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə onların özəlləşdirilməsi ilə bağlı investisiyaların cəlb olunması və qoyuluşu, dövlət müəssisələri özəlləşdirildikdən sonra onların yeni mülkiyyətçiləri tərəfindən həmin müəssisələrə investisiya qoyuluşu üzərində nəzarət edilməsini tənzimləyən normativ-hüquqi, metodik və digər sənədlərin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

3.0.60. monitorinq və araşdırmalar zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılmasına məsul olan şəxslər göstərilməklə, rəhbərliyə təkliflər vermək;

3.0.61. dövlət əmlakından səmərəli istifadə edilməsi məqsədilə tədbirləri həyata keçirmək;

3.0.62. Xidmətin icraçı olduğu dövlət proqramları, strateji yol xəritələri və digər normativ hüquqi aktlarla müəyyən edilmiş tapşırıqların aidiyyəti üzrə tam həcmdə, vaxtında və keyfiyyətlə icrasını təmin etmək, icraya dair hesabatları (məlumatları) hazırlayıb müəyyən edilmiş qaydada təqdim etmək, bununla bağlı Xidmətdə monitorinq və qiymətləndirmənin aparılması üçün zəruri olan məlumatları vaxtında Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.63. Xidmətin strateji inkişaf, fəaliyyət və tədbirlər planlarının hazırlanmasında iştirak etmək, onların hazırlanması və icrası ilə bağlı materialları Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.64. öz fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin və iş proseslərinin optimallaşdırılması, habelə elektron xidmətlərə və rəqəmsal idarəetməyə davamlı keçidin təmin edilməsi, innovasiyaların tətbiq edilməsi ilə bağlı mütəmadi təhlillər aparmaq və innovativ inkişafa

dair təkliflər hazırlayıb Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək, təkliflərin qəbulu və icrası ilə bağlı aidiyyəti üzrə tədbirlər görmək;

3.0.65. əsasnaməsi ilə müəyyən edilmiş əsas fəaliyyətlərini müntəzəm təhlil etmək, fəaliyyətinin şəffaflılığının və səmərəliliyinin artırılması barədə təkliflər hazırlayıb Xidmət rəisinə təqdim etmək və bu istiqamətdə əməli tədbirlər görmək;

3.0.66. əsas fəaliyyət göstəriciləri üzrə proqnozların və tapşırıqların müəyyən edilməsinə dair təkliflər vermək, onların icrasına dair Xidmətdə analitik məlumat bazasının yaradılması ilə bağlı fəaliyyət istiqamətləri üzrə statistik göstəriciləri hazırlamaq və Xidmətə dövri (aylıq, rüblük, yarımillik və illik) hesabatları Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.67. Xidmətdə əsas fəaliyyət göstəriciləri üzrə müəyyən edilmiş proqnozların icrasının monitorinqi və qiymətləndirilməsi, həmçinin müvafiq iqtisadi-statistik, texniki-iqtisadi və analitik təhlillər aparmaq məqsədilə aidiyyəti üzrə zəruri məlumatları, arayışları, cədvəlləri və digər məlumatları hazırlayıb Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək, müvafiq fəaliyyət sahələrinin perspektiv inkişafı, müasirləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlı təkliflər vermək;

3.0.68. dövlət orqanlarının, dövlət müəssisə və təşkilatlarının balansında və istifadələrində olan, fəaliyyəti üçün lazım olmayan, boş, istifadəsiz və yararsız olan əmlakın sərəncama götürülməsi və səmərəli istifadə olunması barədə təkliflər vermək;

3.0.69. müvafiq sahənin inkişafı ilə bağlı öz fəaliyyət istiqamətləri üzrə dövlət proqramlarının və digər normativ hüquqi aktların layihələrini hazırlamaq və hazırlanmasında iştirak etmək;

3.0.70. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.71. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.0.72. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

3.0.73. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.0. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq fəaliyyət sahələri və istiqamətləri üzrə müstəqil şəkildə təhlillər və araşdırmalar aparmaq, analitik materiallar hazırlamaq, Xidmətin rəhbərliyinə müvafiq təkliflər vermək;

4.0.2. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Xidmətin strukturlarından şifahi və yazılı qaydada şöbənin müəyyən etdiyi formada, müddətlərdə və dövrlər üzrə arayış, məlumat, hesabatlar almaq;

4.0.3. Xidmətin strukturlarından, kənar təşkilatlardan mütəxəssislərin və ekspertlərin cəlb olunması üçün Xidmətin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.0.4. xidməti zərurətlə əlaqədar Xidmətin strukturlarına, dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə müvafiq qaydada sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.5. Xidmətin strukturları tərəfindən qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

4.0.6. müvafiq sahənin təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

4.0.7. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.0.8. Xidmətdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Xidməti təmsil etmək, onların işində iştirak etmək, müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.0.9. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı Xidməti dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.0.10. Xidmətdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Xidməti təmsil etmək, onların işində iştirak etmək;

4.0.11. müvafiq sahə üzrə yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlər görmək;

4.0.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.0.13. Xidmətin strukturlarında idarəetmənin təkmilləşdirilməsi, səlahiyyətlərin dəqiqləşdirilməsi, fəaliyyətin optimallaşdırılması, habelə müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün təkliflər hazırlamaq;

4.0.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə Xidmət rəisinə tabedir və onun qarşısında hesabat verir. Xidmət rəisi tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Dövlət əmlakının registri sektoru, Dövlət müəssisələrinin və səhmlərin (payların) idarə edilməsi sektoru və Dövlət əmlakından səmərəli istifadəyə nəzarət sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazirliklə razılaşdırmaqla Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazirliklə razılaşdırmaqla Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır. Şöbə müdirinin müavini şöbə müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavinlərindən biri və ya Xidmət rəisi tərəfindən müəyyən edilən digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Sektor müdirləri müəyyən edilmiş istiqamətlər üzrə sektorların qarşısında qoyulmuş vəzifələrin icrasına görə məsuliyyət daşıyırlar.

5.6. Şöbənin və sektorların hər bir işçisi hazırladığı, ekspertizadan keçirdiyi və imzaladığı sənədin Azərbaycan Respublikasının qanunvericilik aktlarına, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin normativ hüquqi aktlarına, nazirin və Xidmət rəisinin əmr və sərəncamlarına uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.

5.7. Şöbə müdiri:

5.7.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.7.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.7.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Xidmətin rəhbərliyinə təqdim edir;

5.7.5. şöbə tərəfindən bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.7.6. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Xidmətin rəhbərliyinə təqdimatlar verir;

5.7.7. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Xidmətin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.7.8. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.7.9. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.7.10. şöbəni təmsil edir.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

**6.1. Dövlət əmlakının registri sektorunun aşağıdakı vəzifələri vardır:**

6.1.1. respublikanın ərazisində və onun hüdudlarından kənarda yerləşən daşınmaz dövlət əmlakının registrinin aparılması məqsədilə dövlət hakimiyyəti orqanlarından, dövlət şirkət, birlik, idarə, təşkilat və müəssisələrindən sərəncamlarında və balansında olan daşınmaz dövlət əmlakı haqqında müvafiq məlumatların əldə edilməsini və həmin məlumatların sistemləşdirilərək mərkəzi registr bazasında qeydiyyatının aparılmasını təmin etmək;

6.1.2. daşınmaz dövlət əmlakı barəsində bağlanmış əqdlərin (icarəyə və yaxud istifadəyə verilməsinin, girov qoyulmasının və digər öhdəliklərlə yüklənməsinin, özəlləşdirilməsinin), balansdan-balansa verilməsinin, silinməsinin, habelə əmlakın öhdəliklərlə yüklənməsi barədə digər halların dövlət əmlakının registrində qeydiyyatının aparılmasını təmin etmək;

6.1.3. dövlətə məxsus hüquqi şəxslərin xarici ölkələrdə təsis edilən törəmə və birgə paylı müəssisə, filial və nümayəndəliklərinin uçotunun təşkil etmək;

6.1.4. daşınmaz dövlət əmlakı barəsində sərəncam verilməsi və əqdlərin bağlanılması üçün registrdən çıxarışların hazırlanmasını təmin etmək;

6.1.5. registrdən çıxarış olmadan daşınmaz dövlət əmlakı barəsində hər hansı sərəncamların verilməsinin və əqdlərin bağlanılmasının qarşısının alınması üçün təkliflər vermək və digər tədbirlər görmək;

6.1.6. dövlət əmlakının registrində toplanmış məlumatlar (dövlət sirri təşkil edən daşınmaz dövlət əmlakı barəsində olan məlumatlar istisna olmaqla) əsasında müxtəlif toplu və məcmuələrin hazırlanmasını təmin etmək;

6.1.7. dövlət əmlakının registrinin aparılması sahəsində qanunvericiliyi pozan vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsi barədə təkliflər vermək;

6.1.8. daşınmaz dövlət əmlakı barəsində məlumatın təqdim olunmuş sənədlərə uyğun gəlməsini yoxlamaq məqsədi ilə təqdim olunan məlumatların və sənədlərin dəqiqliyinin yoxlanılmasını həyata keçirmək;

6.1.9. daşınmaz əmlakın dövlət registrinin informasiya sisteminin aparılması və təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

6.1.10. daşınmaz dövlət əmlakının idarə edilməsi, dövlət əmlakı barədə sərəncam verilməsi, registrinin və qeydiyyatının aparılmasını tənzimləyən normativ-hüquqi, metodik və digər sənədlərin layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

6.1.11. icra hakimiyyəti orqanlarından, dövlət müəssisə və təşkilatlarından dövlət əmlakının idarə olunmasına, onun barəsində sərəncam verilməsinə, dövlət əmlakının registrinin aparılmasına dair təqdimatlar hazırlamaq;

6.1.12. dövlət əmlakının registrinin və onun barəsində bağlanılan əqdlərin qeydiyyatının aparılması sahələrində ərazi şöbələrinin fəaliyyətinə funksional rəhbərliyin həyata keçirilməsini təmin etmək;

6.1.13. dövlət əmlakının bələdiyyə mülkiyyətinə verilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Nazirlik vasitəsilə aidiyyəti orqanlarla razılaşdırılmış təqdimat vermək və qəbul olunmuş qərar əsasında əmlakın bələdiyyə mülkiyyətinə verilməsini həyata keçirmək;

6.1.14. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.1.15. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.1.16. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.1.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.2. Dövlət müəssisələrinin və səhmlərin (payların) idarə edilməsi sektorunun aşağıdakı vəzifələri vardır:**

6.2.1. dövlət əmlakının idarə edilməsi və dövlət əmlakı barəsində sərəncam verilməsinə dair təkliflər vermək və tədbirləri həyata keçirmək;

6.2.2. dövlət əmlakının idarə edilməsi sahəsində icra hakimiyyəti orqanlarının, dövlət müəssisə və təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə təkliflər vermək;

6.2.3. Nazirliklə razılaşdırmaqla dövlət təşkilatları tərəfindən dövlətə məxsus olan hüquqi şəxslərin (o cümlədən onların filial və nümayəndəliklərinin) yaradılmasına, yenidən təşkilinə, ləğv olunmasına və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslərin yaradılmasında dövlət əmlakının pay şəklində qoyuluşuna razılıq verilməsi barədə məsələlərə Xidmətin aidiyyəti strukturları cəlb edilməklə baxılmasını və tədbirlərin görülməsini təmin etmək;

6.2.4. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, dövlət mülkiyyəti əsasında yaradılan və ya səhmləri (payları) dövlətə məxsus olan müəssisələrin idarə edilməsinin təşkilində iştirak etmək, həmin müəssisələrin rəhbərlərinin təyin edilməsi və onlarla əmək müqavilələrinin bağlanılması barədə təkliflər vermək;

6.2.5. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlətə məxsus olan hüquqi şəxslərin və nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərin nizamnamələrinin təsdiq edilməsi barədə təkliflərini Xidmət rəisi ilə razılaşdırmaqla Nazirliyə təqdim etmək və bu istiqamətdə tədbirlər görmək;

6.2.6. Nazirliyin müəyyən etdiyi hallarda dövlətə məxsus olan hüquqi şəxslərin təsisçisi (Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla) və iştirakçısı kimi çıxış etmək;

6.2.7. özəlləşdirilən müəssisə və obyektlərin yenidən təşkilinin və ləğvinin qanunvericiliyə uyğun olub-olmamasının təhlil edilməsində və bu sahədə qanun pozuntuları aşkar olunduqda aidiyyəti orqanlar qarşısında məsələ qaldırılmasında iştirak etmək;

6.2.8. birgə müəssisələrdə dövlətə məxsus olan payın (səhmlərin) miqdarının dəyişdirilməsinə razılıq verilməsinə dair müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək, həmin payın səmərəli idarə edilməsini təmin etmək;

6.2.9. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlət əmlakının və dövlətə məxsus olan hüquqi şəxslərə məxsus obyektlərin (əsas vəsaitin) girov (ipoteka) qoyulmasına razılıq verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək və bu sahədə nəzarəti həyata keçirmək;

6.2.10. Nazirliklə razılaşdırmaqla dövlətə məxsus olan hüquqi şəxslərə məxsus obyektlərin (əsas vəsaitin) satılmasına razılıq verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

6.2.11. tabeliyindən və sahə mənsubiyyətindən asılı olmayaraq, dövlət mülkiyyətində olan, habelə nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərə məxsus obyektlərin (əsas vəsaitlərin) balansdan-balansa verilməsinə razılıq və silinməsinə dair rəy verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

6.2.12. dövlət, özəlləşdirilən müəssisə və obyektlərin vergi və digər borclarının vaxtında ödənilməməsi səbəbindən yaranan borclarla əlaqədar ödəmənin əmlaka yönəldilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

6.2.13. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmdarlarının birinci ümumi yığıncağı çağırılanadək cəmiyyətin Müşahidə Şurasının

səlahiyyətlərinin yerinə yetirilməsini və nizamnamə kapitalında dövlət mülkiyyətində qalan səhmlərə görə idarəçiliyin və dövlət paylarına nəzarətin həyata keçirilməsini təmin etmək;

6.2.14. səhmdar cəmiyyətlərinin səhmdarlarının birinci ümumi yığıncağı çağırılanadək cəmiyyətin Müşahidə Şurasının səlahiyyətlərini yerinə yetirmək üçün nümayəndələrin təyin edilməsi barədə təqdimat vermək;

6.2.15. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmdarlarının birinci ümumi yığıncağı keçirilənədək səhmdar cəmiyyətlərin idarə heyətinin sədri və üzvlərinin təyin edilməsi barədə təqdimat vermək;

6.2.16. səhmdarların birinci ümumi yığıncağının keçirilməsində səhmdar cəmiyyətlərinə metodiki yardım göstərmək;

6.2.17. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) saxlanılması və onların idarə olunmasının təmin edilməsi, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, o cümlədən idarəetmə məqsədi ilə payların (səhmlərin) hüquqi və fiziki şəxslərə verilməsi barədə təkliflər hazırlamaq;

6.2.18. nizamnamə kapitalında dövlətin payı olan birgə müəssisələrin idarəetmə orqanlarında dövlətin nümayəndəsinin təyin edilməsi barədə təkliflər hazırlamaq;

6.2.19. özəlləşdirilən müəssisə və obyektlərə, habelə ləğv olunan dövlət təşkilatlarına və müəssisələrinə məxsus olmuş sosial-mədəni, kommunal-məişət, mülki müdafiə, səfərbərlik təyinatlı obyektlərin və özəlləşdirilməsi nəzərdə tutulmayan digər əmlakın aidiyyəti üzrə balansdan-balansa verilməsi barədə təkliflər vermək və qəbul olunmuş qərarlar əsasında əmlakın balansdan-balansa verilməsinə nəzarəti həyata keçirmək;

6.2.20. dövlət müəssisələrində keçirilən inventarlaşdırma zamanı aşkar edilmiş, lakin mühasibat uçotunda qeydə alınmamış əsas vəsaitlərin qeydə alınmasını təmin etmək;

6.2.21. dövlətə məxsus olan hüquqi şəxslərin və nizamnamə kapitalında dövlətin payı olan ödəniş qabiliyyəti olmayan hüquqi şəxslərin fəaliyyətini, maliyyə vəziyyətini təhlil edib rəy vermək, özəlləşdirilən müəssisə və obyektlərin müflisləşmə prosedurunun həyata keçirilməsində iştirak etmək və bu zaman dövlətə məxsus əmlakın satışını təşkil etməklə bağlı təkliflər vermək;

6.2.22. dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitdən ayırmaların müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması, dövlət əmlakının qorunub saxlanılması və mühafizəsi xərclərinin ödənilməsi məqsədi ilə istifadə olunmasına dair təkliflər vermək;

6.2.23. Xidmətin sərəncamına verilmiş müəssisə və təşkilatların rəhbər (nomenklatur) işçilərinin vəzifəyə təyin edilməsi və vəzifədən azad olunması, onların barəsində həvəsləndirmə

və intizam tənbeh tədbirlərin görülməsi haqqında hazırlanmış təqdimatların razılaşdırılmasında iştirak etmək;

6.2.24. müvafiq sahədə dövlət proqramlarının, inkişaf konsepsiyalarının layihələrinin hazırlanması ilə əlaqədar təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

6.2.25. əsas fondların təzələnməsi, yenidən qiymətləndirilməsi, amortizasiya normalarının hazırlanması ilə əlaqədar Nazirliyə təkliflər vermək və onların tətbiq edilməsində iştirak etmək;

6.2.26. dövlət əmlakının idarə olunması və özəlləşdirilməsi ilə əlaqədar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin və istehsalın inkişaf dinamikasının təhlil edilməsində, proqnozlaşdırılmasında və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, bu barədə proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.2.27. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrində və özəlləşdirmə prosesində olan müəssisələrdə rəqabət qabiliyyətli malların istehsalı üçün lazımi tədbirlərin həyata keçirilməsində, dövlət müəssisələrinin mövcud vəziyyətinin, inkişaf meyllərinin və müəssisələrin özəlləşdirilməsi imkanlarının beynəlxalq təcrübə nəzərə alınmaqla təhlil edilməsində və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

6.2.28. dövlət əmlakının idarə edilməsini tənzimləyən normativ-hüquqi, metodik və digər sənədlərin layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

6.2.29. müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) saxlanılmasında və onların idarə olunmasının təmin edilməsində, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsində, o cümlədən idarəetmə məqsədilə payların (səhmlərin) hüquqi və ya fiziki şəxslərə verilməsində iştirak etmək;

6.2.30. dövlət əmlakının özəlləşdirilməsi prosesində təsis olunmuş və tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinə məxsus daşınar və daşınmaz əmlakın satılmasına və digər qaydada özgəninkiləşdirilməsinə razılıq vermək;

6.2.31. dövlət payı olan səhmdar cəmiyyətlərində və birgə müəssisələrdə dövlət büdcəsinə çatacaq dividendlərin hesablanmasını və ödənilməsini araşdırmaq, bu sahədə qanun pozuntuları aşkar olunduqda aidiyyəti orqanlara məlumat hazırlamaq;

6.2.32. dövlət müəssisə və təşkilatları tərəfindən dövlət əmlakının inventar siyahılarının Xidmətin ərazi şöbələri ilə birgə tərtib olunmasının təşkilində iştirak etmək;

6.2.33. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.2.34. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.2.35. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.2.36. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.3. Dövlət əmlakından səmərəli istifadəyə nəzarət sektorunun aşağıdakı vəzifələri vardır:**

6.3.1. dövlət əmlakının idarə edilməsinə və ondan təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək, bu məqsədlə tabeliyindən və sahə mənsubiyyətindən asılı olmayaraq dövlət müəssisələrində, nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərdə monitorinq və araşdırmalar aparmaq, bu sahədə müvafiq qanunvericiliyi pozan müəssisə və təşkilatların vəzifəli şəxslərinin hərəkətləri barədə aidiyyəti dövlət orqanlarına məlumat hazırlamaq;

6.3.2. dövlət əmlakı barəsində bağlanmış əqdlər Azərbaycan Respublikasının iqtisadi maraqlarına ziyanla nəticələndikdə həmin əqdlərlə bağlı məhkəmədə iddia qaldırılması üçün aidiyyəti üzrə təkliflər vermək;

6.3.3. dövlət və özəlləşdirilən müəssisələrə məxsus obyektlərin (əmlakın) zəbt olunması və qanunazidd formada istifadə olunması hallarının qarşısını almaq üçün tədbirlər görmək, bu məqsədlə aidiyyəti orqanlara məlumat verilməsi, o cümlədən məhkəmə qarşısında iddia qaldırılması barədə aidiyyəti üzrə təkliflər vermək;

6.3.4. dövlət əmlakının pay qoyuluşu ilə yaradılmış birgə müəssisələrin nizamnamə kapitalındakı dövlət payının (səhmlərin) səmərəli idarə olunması üçün tədbirləri həyata keçirmək, birgə müəssisələrin təsis sənədləri, fəaliyyəti və dövlət payının istifadə edilməsi ilə əlaqədar hesabatlarla tanış olmaq, təhlil aparmaq, dövlət paylarından səmərəli istifadə edilməsinin təmin olunması və özəlləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.3.5. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) saxlanılması və onların idarə olunmasının təmin edilməsi, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, o cümlədən idarəetmə məqsədi ilə payların (səhmlərin) hüquqi və fiziki şəxslərə verilməsi barədə təkliflər hazırlamaq;

6.3.6. özəlləşdirilən müəssisə və obyektlərə, habelə ləğv olunan dövlət təşkilatlarına və müəssisələrinə məxsus olmuş sosial-mədəni, kommunal-məişət, mülki müdafiə, səfərbərlik təyinatlı obyektlərin və özəlləşdirilməsi nəzərdə tutulmayan digər əmlakın aidiyyəti üzrə balansdan-balansa verilməsi barədə təkliflər vermək və qəbul olunmuş qərarlar əsasında əmlakın balansdan-balansa verilməsinə nəzarəti həyata keçirmək;

6.3.7. dövlət müəssisələrinin və nizamnamə kapitalında dövlət payı olan ödəniş qabiliyyəti

olmayan müəssisələrin fəaliyyətini, maliyyə vəziyyətini təhlil edib rəy hazırlamaq, özəlləşdirilən müəssisə və obyektlərin müflisləşmə prosedurunun həyata keçirilməsində iştirak etmək;

6.3.8. sektora daxil olan müraciətləri vaxtında araşdırmaq və qoyulmuş məsələləri həll etmək;

6.3.9. dövlət əmlakının mühafizəsinə və qorunub saxlanılmasına nəzarəti həyata keçirmək, daşınmaz dövlət əmlakının təyinatının dəyişdirilməsinə razılıq verilməsi barədə müraciətlərə baxılmasında və rəy hazırlanmasında iştirak etmək;

6.3.10. dövlət əmlakından istifadə olunması barədə aidiyyəti dövlət orqanları ilə birlikdə statistik hesabat formalarının hazırlanmasında iştirak etmək, əmlakın inventar siyahıları, habelə əmlakdan istifadə barədə hesabatlar əsasında dövlət əmlakından təyinatı üzrə səmərəli istifadə olunması vəziyyətini təhlil etmək, bu sahədə müvafiq qanunvericiliyi pozan müəssisə və təşkilatların vəzifəli şəxsləri barəsində qanunvericiliyin tələblərinə uyğun tədbirlər görmək və bu barədə aidiyyəti dövlət orqanlarına məlumat hazırlamaq;

6.3.11. dövlət müəssisələrinin müqavilə əsasında idarəetməyə verilməsinə dair imzalanmış müqavilələrin şərtlərinin həyata keçirilməsinə nəzarət etmək;

6.3.12. dövlət müəssisələrindən və dövlət orqanlarından müəyyən olunmuş qaydada xüsusi hesabatların alınmasını və təhlil edilməsini təmin etmək, təhlil nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqlar barədə aidiyyəti dövlət orqanlarına məlumat hazırlamaq;

6.3.13. dövlət müəssisələrinin və ya əmlakında dövlət payı olan müəssisələrin fəaliyyətini və maliyyə vəziyyətini təhlil edib təkliflər hazırlamaq;

6.3.14. dövlət orqanlarının, dövlət müəssisə və təşkilatlarının balansında və istifadələrində olan, fəaliyyəti üçün lazım olmayan, boş, istifadəsiz və yararsız olan əmlakın sərəncama götürülməsi və səmərəli istifadə olunması barədə təkliflər vermək;

6.3.15. müflis elan olunmuş dövlət müəssisələrinin əmlakının və nizamnamə kapitalında dövlət payı olan müəssisələrin dövlətə məxsus əmlakının satışına dair təkliflər vermək;

6.3.16. monitorinq və araşdırmalar zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılmasına məsul olan şəxslər göstərilməklə, rəhbərliyə təkliflər vermək;

6.3.17. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.3.18. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.3.19. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.3.20. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.